**UOT 81 41; 801. 7**
**https://doi.org/10.59849/2311-8482.2024.2.300**

**FİRUDİN RZAYEV***

# MƏHƏMMƏD FÜZULİ YARADICILIĞINDA SUFİZM MOTİVLƏRİ

*Məqalədə böyük Azərbaycan şairi Məhəmməd Füzuli yaradıcılığında Sufizm onun ayrı- ayrı istiqamətləri* tədqiqata *cəlb edilmişdir. Burada, sufizm istiqamətindən* məhəbbət *motivləri və dini inanc formalarına aydınlıq gətirilmişdir. Bununla bərabər sufizmdə* vəhdəti-vücud *fəlsəfəsinə baxışlar da M.Füzuli yaradıcılığına istinadən təhlil edilmişdir. Məqalədə bu istiqamətdən tədqiqatlarda, onun yaradıcılığına olan münasibətlərə də müqayisəli nəzər salınmışdır. M.Füzuli yaradıcılığında sufizmdə yer alan inam, tamah, onlara olan münasibətlər də burada izah edilmişdir.*

Ümumilikdə Füzuli yaradıcılığında yer alan Sufizmdəki sevgi-məhəbbət, Tanrı dini inancı, Vədəti-vücud, *ilə bağlı fikirlər geniş yer alır ki, bunlar sistemli tədqiq edilməmişdir. Bütün bunlar Füzuli yaradıcılığında Sufizmin zənginliyini göstərir. Tədqiqat zamanı ortaya Sufizmlə bağlı yeni elmi faktlar çıxmışdır.*

**Açar sözlər:** *M.Füzuli, Sufizm, məhəbbət, dini inanc, vəhdəti vücud, məzhəb və din*

## Giriş

Biz tarixi mənbələrə diqət etdikdə Azərbaycan xalqının dünya ədəbiyyatı tarixində xüsusi yeri olduğuna və ədəbiyyat tarixinə öz möhürünü vuran, istər yazılı abidələri, istərsə də görkəmli yazarları ilə seçilən qədim xalqlardan biri olması faktları ilə qarşılaşırıq. Təkcə bir neçə fakta diqqət çəkmək istərdik ki, yazılı dastanlarımızın Drezden, Vatikan kilisələrindən üzə çıxması, hazırda Şeyx Səfi türbəsindən qədim yazı nümunələrimizin erməni və farsların əliylə Matanadaran, Asmiədzin (Eçmiədzin) Tanrı məbədlərinə daşınması bir təsadüf deyil tarixi faktlardır. Biz bir çox bu istiqamətdən olan yazılarımızda da qeyd etmişik ki, dünyada ilk Xəmsə-Beşliyin yaradılmasının Azərbaycan xalqına məxsusluğu milli ədəbiyyat mədəniyyətimizin inkarolunmaz sübutlarından biridir. Təbii ki, bütün bu tarixi həqiqətlə, Görkəmli dövlət xadimi, prezidentimiz İlham Əliyevin də nəzərindən yayınmamış cənab İlham Əliyev 25 yanvar 2024-cü ildə qeyri-adi düşüm tərzi və mükəmməl biliyə sahib olan, öz yaradıcılığında insana ilahi məhəbbət aşılayan, Sufizm-Hürufizm fəlsəfəsini öz yaradıcılığında irəli çəkən Məhəmməd Füzulinin anadan olmasının 530 illiyi ilə bağlı Sərəncam imzalamışdır. Xüsusi olaraq qeyd edək ki, istər Drezden, Vatikan kilisələrindən çıxan qədim dastanlarımız, istərsə də Azərbaycan qədim ədəbiyyatının görkəmli nümayəndələri Nizami, Fizuli, Nəsimi və digər yazarlarımızın əsərlərində Avropa və digər xristian dövlətləri də bəhrələnmidir ki,xristian yazıçılarının əsərlərində biz bu istiqamətlərdən xeyli yazılara rast gəlirik. Bütün bunlar dil, tarix və ədəbiyyatımızın danılmaz tarixi sübutlar kimi dünya ədəbiyyatında xalq yazılı mədəniyyətimizin mühüm təsirinin möhürü kimi özünü təqdim edən faktlardır.

Biz M.Füzuli yaradıcılığına diqqət etdikdə, burada fəlsəfi fikir, məhəbbət, tarix və s. müxtəlif istiqamətlərdən bədii ədəbiyyatımıza yeni elmi fikirlər gətirdiyinin şahidi oluruq. Xüsusi olaraq qeyd edək ki, Böyük Azərbaycan şairinin ata, anası və iki bacısı müasir Azərbaycan ərazisi, Ağcabədi rayonunun Novlu Qışlaq kəndindən olmuş, onlar Bağdada köçdükdən sonra Fizuli dünyaya gəlmişdir ki, bəzən onu farslar "Fars şairi" kimi təqdim etməyə çalışırlar. Biz Urmiyada M.Fizuli ilə bağlı keçirilən beynəlxalq konfransda onu fars kimi təqdim edən iki məqalə müəllifinin çıxışını rədd etdik (Mən həmin Bölmə iclasının rəhbəri idim-F.R.). Təbii ki, biz hər hansı bir əraziyə köç etdikdə, oradakı xalqa çevrilmirik. Bu mövcud faktlar onun Azərbaycan şairi olduğunu bir daha sübut edir. Bəs ümumilikdə Fizuli yaradıcılığında Sufizmə baxış tədqiqatlarda necə yer almışdır?

## Tədqiqatlarda Füzuli yaradıcılığı və Sufizmə baxış

Biz mənbələrə diqqət etdikdə, bu istiqamətdən müxtəlif fikirlərə rast gəlirik. Füzulinin qəzəllərində panteist fəlsəfi baxışın mühüm yer tutduğu Ə.Səfərli, X.Yusiflinin yazılarında xüsusi

qeyd edilir. Müəlliflər onun qəzəllərinin fəlsəfi əsasını sufizmin təşkil etdiyini göstərməklə bərabər, Füzulinin yaradıcılığındakı sufizm motivlərinin insandan, dünyadan ayırmdığını qeyd edirlər. Füzuli qəzəllərində aşağıdakı misraları nümunə kimi verən müəlliflər, burada

Vadiyi eşqdə sevda ilə sərgəştə idim,
Gəlmədən gərdişə bu günbədi-dəvvar hanuz.
Naleyi-zarrım ilə xəlqə həram oldu yuxu,
Qara bəxtim yuxudan olmadı bidar hənuz.

göstərilən ifadələrin suftzmin yaradıcılığı haqqındakı düşüncələrlə vəhdətdə olduğunu xüsusi olaraq qeyd edirlərr [10, s. 450-451].

Biz bu cür fikirlərə G.Əliyeva-Kəngərlinin də bu istiqamətdən apardığı geniş tədqiqatlarında da rast gəlirik. Müəllifin böyük araşdırmalarından biri Füzulinin sufizm və hürufilikdəki yeri ilə bağlıdır. O, özünün “Azərbaycan füzulişünaslığı” əsərində yazır: “Füzuli sözü peyğəmbərdən və ona nazil olmuş Qurandan əvvələ, Allahdan sonraya gətirir”. Füzuli ilə “Ənəlhəqq deyərək Allahı insanda əridən” hürufiliyin bu nöqtədə qovuşduğunu göstərən alim, Füzulinin yazısında “ərşdən gələn sözü”, “asimanın sirrini açan açar” hesab edir ki, yəni bunu İlahidən gələn söz aça bilər fikirində dayanır. O, M.Füzulidə sözün gözəlliyi ilə bərabər onun “libasi-mərifətlə” süslənməsini, sözün əxlaq və elmlə dolu olmasını önəmli sayır . Füzulinin

“Ey mələk sima ki, səndən özgə heyrandı sənə,
Həqq bilər, insan deməz hər kim ki, heyrandır sənə”

beytini nümunə verməklə, Nəsiminin “Qorxdular Həqq deməyə, döndülər insan dedilər” beyti ilə bunu müqayisə edir və hər ikisində də eyni idealın “Haqq-təala insan oğlu özüdür” fikrinin ifadəsi olduğunu qeyd edir [2, s. 57-61].

Müəllifin digər yazılarında XX əsrin önlərindən başlayaraq Füzuli haqqında yazan N.F.Köprülzadə, İ.Hikmət, Ə.Hüseynzadə kimi tədqiqatçıların bir qisminin, birmənalı şəkildə Füzulini sufi adlandırdığını göstərir. G.Kəngərli, bununla bərabər, B.Çobanzadə, A.Şaiq, H.Araslı, M.Quluzadə, S.Əliyev kimi elm adamlarımızın da bu məsələyə tərəddüdlə yanaşıb, bəzən isə şairin ilahi eşq konsepsiyasına realist, həyati don geydirməyə çalışdığını göstərir. Burada müəllif, İ.Hikmətn (Ərtaylan) Füzuli haqqında yazıqlarına da toxunaraq, onun Füzulin eşqi-ilahidə, eşqi təsəvvüfdə ən yüksək mərtəbəsinə varmaq istəyini, təsəvvüfün nəşəsi və bir həzzi-dəruni ilə yazdığı qəzəllərin pək çoxunda zahir olduğunu göstərir. O, bununla bərabər böyük sufilər Mənsur Həllacın, Bəyazid Bistaminin, Cüneyd Bağdadinin, Əhməd Yəsəvinin, Mövlanə Cəlaləddin Ruminin, Yunis Əmrənin, Hacı Bəktaşinin, Nizaməddin Mir Əlişir Nəvainin, Fəridəddin Əttarın, Marağalı Əvhədinin, Şeyx Mahmud Şəbüstərinin, Seyid İmadəddin Nəsiminin, Şah İsmayıl Xətainin də sufizmdə xüsusi rolunu önə çəkir. Burada türk müəllifinin Fizuli yaradıcılığında bu cahan əlatələrindən, bu dünya qeydlərindən nə bir şövq, nə bir sevda ümid etmədiyi, onlardan qurtulmaq üçün çırpınıb, yalvardığı və vücud, varlığın bir heç halına gətirdiyini göstərir [3, s. 28-29].

Bu istiqamətdə biz Fizuli yaradıcılığı haqqında müəyyən fikirlərə Y.Babayevin “Təriqət ədəbiyyatı” kitabında da rast gəlirik. Burada Sufizm, Hürufizm idoloji baxışlarına ətraflı nəzər zalınmaqla yanaşı kitabın 1 Sufizm bölümündə Mədrəsə təkkə qarşıdurmasına xüsusi yer verilməklə, təriqət əhlinin-sufilərin və irfan sahiblərinin yığışdığı, təlimat aldığı, ilahi hikməti və Allah sevgisini öyrənib anladığı məkanın təkkələr olduğu, ali təhsil ocaqlarının isə mədrəsə olduğu qeyd edilir. Burada Təkkədəki insanların mənən daha çox azad və sərbəst olduğu, vəcd, ilahi duyum, hissi qavrayış, haqq sevgisindən doğan emosional çılğınlığın təkkə əhlinə heç də yad və qadağan olmadışı göstərilir. Burada Mədrəsənin isə bütün bunlara biganə yanaşdığı, Sufizmin sofiya-“hikmət, düşüncə” sözlərindən gəldiyi göstərilir [1, s. 5-9].

Bir sıra tədqiqatlarda sufizmdə yer alan şəriət, təriqət, mərifət, həqiqət dördlüyündə isə son məqsəd, həqiqət Haqqın özünün dərkini tamamlayır. Həqiqət mərhələsinə çatmaq artıq kamil bir insan kimi Haqqa yetişmək və gerçəyi anlamaq, ilahi əxlaqla əxlaqlanmaqdır. Təsəvvüf və ifrana dair yazılarda isə özünəqədərki bəşəri-mədəni inkişafda bir sıra din, dini-fəlsəfi görüş və etiqad sistemləri ilə uyğun və oxşar cəhətləri özünə birləşdirdiyi göstərilir. Burada Sufizm, Şamanizm, zərdüştilik və s. dini və fəlsəfi təmayüllərdəki müəyyən cəhətlərin islam təsəvvüfü və irfanla bənzərlik təşkil etdiyi də göstərilir [6, s. 49-68].

Biz bir sıra Türkiyə yazarlarının əsərlərində Fizulinin yalnız doğum yeri və həyatı haqqında məlumatlarla rastlaşırıq. Bu yazılar arasında Uludağ Süleymanın və Gökberk Macitin əsərlərində Sufi təriqətində Dini-əxlaqi məsələlər, mənəvi və yaşayış tərzinin ümumi adı olan Sufilik və təsəvvüf həqiqətindən fikirlər söylənilsə də, Füzuli yaradıcılığında sufizm məsələsinə toxunmurlar [5, s. 335; 11, s. 123].

Biz N.Musayevin öz yazılarında H.Araslı, F.Qasımzadə, T.Hacıyev, M.Quluzadə kimi xeyli Azərbaycan müəlliflərinin, eləcə də Türkiyə yazarlarını əsərlərinə baxışda, onlara müqayisəli şəkildə M.Füzuli yaradıcılığına münasibətlərini geniş şərh edir. O, bununla bərabər bu yazılarda şairin XVI əsrdə doğum ərazisi haqqında bu yazılarda yer alan fikirlərə də elmi faktlar əsasında münasibət bildirir. N.Musayev, M.Füzulinin yaradıcılığına olan bu və digər münasibətləri geniş təhlil etməkləyanaşı, sonda öz elmi fikirlərini də ortaya qoyur. Burada M.Füzuli yaradıcılığında istər məhəbbət və təriqət, istərsə də Sufizmdə yer alan müxtəlif fəlsəfi fikirlərin, oxucunu öz təsiri altına alması, dilinin sadəliyi, fəlsəfi məzmunu, melodizmgeniş şərh edir. Bununla bərabər burada, şairin dini münasibətlərə olan elmi fikirlərinə, şerlərində söz quruluşlarına, insani duyğulardakı eşq, əzab, işgəncə kimihisslərin ifadələrində əbədi bir məktəb yaratdığına da xüsusi yer ayırır [9, s. 80-87].

Ümumilikdə bu istiqamətdən elmi tədqiqatlara diqqət etdikdə, şairin yaradıcılığı istər Şərq xalqları, istər Avropa istərsə də türk xalqları arasında öz elmi və fəlsəfi qiymətini təsdiq etmişdir. Bəs M.Fiüzuli yaradıcılığında Sufizm hansı istiqamətlərdən özünü təqdim edir? Bu məsələlərə aydınlıq gətirmək üçün, Fiüzuli yaradıcılığında Sufizm fəlsəfi cəryanın istiqamətlərinə ayrılıqda diqqət etmək istərdik.

**Məhəmməd Füzuli yaradıcılığında Sufizm istiqamətləri**

Əgər yuxarıda qeyd edilən Sufizmlə bağlı Təsəvvüf alimlərinin yazılarına diqqət etsək, onlara görə sufilik müsəlmanın mənəvi axtarışlarının nəticəsidir. Sufilik yolu ilə gedən müsəlman maddi aləmdən azad olmağa və mənəvi cəhətdən yüksəlməyə can atır. Bunu edərkən Allahı sevərək ona ibadət edir, yüksək əxlaqi xüsusiyyətlərə yiyələnir. Mənəviyyatın təkmilləşdirilməsi dinin durğunlaşmasının, onun yalnız qanunlar toplusuna çevrilməsinin, ruhunun itirilməsinin də qarşısını alır. Sufilər hesab edir ki, mənəviyyat yolçuları dözümlülük, sülhsevərlilik, yüksək əxlaqi xüsusiyyətləri əldə edərək, lovğalıq, xəsislik, kobudluq kimi mənfi xüsusiyyətlərdən qurtula bilərlər. Bütün bunlarla bərabər insanın maddi varlığında təcəssüm edən hallara Füzuli yaradıcılığında yer alan fikirlərə öz fikrimiz baxımından da yanaşmaq, süfizmin bəzi istiqamətlərinə ayrılıqda nəzər salmaq istərdik ki, burada ilk olaraq sevgi, məhəbbət xüsusi yer alır .

Müəllifin yaradıcılığında biz aşağıdakı misralara diqqət etdikdə, burada eşq və məhəbbətin varlıqla bağlılığı özünü əks etdirir.

Afət olsan da, könülsən, cismisən cansan mənə,
Mən sənə dostam, nədir illət ki, düşmansan mənə?
Açanda göz üzünə aşiqin olur heyran,
Axıb gedir üzümə sel kimi ciyərdən qan...

Diqqət etsək Füzulinin bu kimi xeyli sayda qəzəllərində şair məhəbbəti ortaya qoymaqla, onu insan varlığının pak duyğuları kimi təqdim edir və məhəbbət yolunda vüsal və həsrəti cevdiyi ilə vəhdətdə həm "heyran" həm də "ciyərdən axan qan" kimi göstərir [7, s. 311, 313]. Biz onun II cild kitabında da varlıqda təcəlla edən məhəbbət adlı sufizm fəlsəfəsini görürük. Aşağıda göstərilən bu misralarda

Eşq dərdi, ey müalic, qabili dərman deyil!
Cövhərindən eyləmək cismi-cüda asan deyil!

Canı canan ittihadı fariq eylər cismdən,
Cismdən agah olan, can vasili canan deyil! [8, s. 56-57].

Əgər bu misralardakı fikirlərə diqqət etsək ,"Ey eşq dərdini müalicə edən burada qəbul edilən dərman deyil və canı kökdən ayırmaq da asan deyil. Can ilə canan birdi, canana qovuşmaq canı

bədəndən ayırar. Öz bətni, bədənindən xəbərdar olan Canana qovuşa bilməz" kimi ifadə olunur. Bu sətirlərdə Sevda-məhəbbət iki can vəhdətində özünü təqdim etməklə, Fizuli yaradıcılığında yer alır [-F.R.].

Bununla bərabər biz onun yaradıcılığında Sufizmdə yer alan tamaha olan münasibətə də rast gəlirik.

Rüşteyi- tuli əməl dami bəladır, neyləyim,
Üzmək olmaz ol səri-zülfi-pərişandan təmə.
İstər olsan heyrətü hirmanə hərdəm düşməmək,
Kəs, Füzuli, dəhrdən ümmidü, dövrandan təmə [7, s. 99].

Göstərilən bu misralardakı əsas mənaya diqqət etsək, burada şair özünə müraciətlə "Doğru yolu tutmaq bir bəladır ki, o saçları pərişana göz dikmə, Füzuli, istərsən ki, heyrətli məhrumiyyətlərə düşməyəsən, mövcüd dünyadan ümidini, dövrandan isə tamahını uzaq tut" ifadələri ilə öz canını tamaha bürünmüş dünayadan qorumağa çalışır [-F.R. 4, s. 228, 522, 612, 653].

Bütün bu fəlsəfi fikirlərlə bərabər Məhəmməd Füzuli yaradıcılığında biz onun istər elmi və astronomik, istərsə də filosof kimi, müxtəlif istiqamətli şerləri ilə qarşılaşırıq. Bu fikirlərlə yanaşki, burad ayrıca olaraq Fizuli yaradıcılığında sufizmdəki dini inanc amillərindən də bəhs etmək, onun dini baxışlarına da fəlsəfi istiqamətdən yanaşmaq istərdik.

Biz bu istiqamətdə alimlərin yaradıcılığı və tədqiqatlarına diqqət etdikdə, burada sufiliyin müsəlmanlarda mənəvi axtarışların nəticəsi kimi şüurda yer aldığını görürük. Sufilik yolunu tutanlar maddi aləmdən azad olmağa və mənəvi cəhətdən yüksəlməyə can atırlar. Sufilər belə hesab edir ki, mənəvi aləm sahibləri dözümlülük, sülhsevərlilik, yüksək əxlaqi xüsusiyyətlərə malik olub mənfi xüsusiyyətlərdən azad olurlar. Onlara görə sufilik hər kəsin mənəvi aləminə təsir edir, ona Allaha, Tanrıya içdən gələn sevgi duyğularını aşılayır ki, biz Fizuli yaradıcılığında bunun xeyli misralarda öz əksini tapdığını görürük.

"Sən nə nuri-paksən, ey məzhəri-süni-illah"...
"Kilki Qüdrət lövhi-sinəmdə səni qılmış rəqəm"...

"Ayində əksim özümə bir nəzər etdi,
Əhvalıma göz yaşı töküb didə tər etdi...
Öz dərdinə bir başqa əlac eylə, Füzuli,
Çox işləri dünyada səbir bisəmər etdi".

"Canımı tapşırmışam çün ləli-şəkkərbarə mən" [7, s. 176, 307, 475; 12].

Əgər bu misralardakı ilk ifadələrə diqqət etsək, burada "Ey yaradan Allahın təcəssümü sən necə saf işıqsan", "Allahın qələmi gözəllər içində səni seçib" kimi misralarda Məzhəb və dini qanunlarda özünə müqayisəli nəzər salan şair, kədərə bürünüb öz yanlışlıqlarını anlayır. O, bu dərddən qurtulmağın yolunu yalnız səbrdə görərək, səbəbi öz əməlində axtarır. Digər sətirdə isə canını ləl kimi pak olan bir düşüm və hərəkətə tapşırır ki, bu da suffizmdə insanı paklığa aparan əsas yoldur. Bu yolda şəriət, təriqət, mərifət və həqiqət əhlinin-sufilərin dördlük istiqamətli fəlsəfəsi ortaya qoyulur. Əgər mənbələrə diqqət etsək irfan sahiblərinin yığışdığı, təlimat aldığı, ilahi hikməti və Allah sevgisini öyrənib anladığı məkan bildiyimiz kimi təkkələr adlanmışdır. Bunlara zaviyə və xanəgah, təriqət əhlinin rəmzi ifadələri ilə meyxana və ya meykədə də deyilir. Mədrəsə isə, müsəlman şərqində dini və dünyəvi elmlərin tədris olunduğu, öyrənildiyi ali məktəb, tədris ocağı olmuşdur. Lakin əsrlər boyunca mədrəsə ilə təkkə arasında bir ziddiyyət və fikir ayrılığı hökm sürmüşdür ki, bu sadəcə qavramın zəifliyindən qaynaqlanır. Əgər biz insani sevincə nəzər salsaq, insan digərində sevmədiyi hərəkətlər fövqündə bir kəsdən intiqam alıb, ona əzab verməkdən də xüsusi zövq alıb, sevinir. Lakin o bu, hərəkətlərdən onu aralamaq gücü və düşüncəsində də ola bilir ki, burada elm və nəfsə olan münasibət əsas rol oynayır. Təbii ki, mədrəsə ilə təkkə arasında bir ziddiyyət və fikir ayrılığının olması da bu düşüncədən irəli gəlirdi. Belə ki, insan öz nəfsinə müdaxilə bacarığında elmlə, dini inanca və haqqa qovuşa bilir ki, xeyli insan şüurunda nəfis bu yola bir sədd olur və onları elm və Haqdan uzaqlaşdırır.

Bizim yuxarıda qeyd etdiyimiz dördlüyə gəldikdə isə, əlbətdə, bu müəyyən səbəblərlə bağlı

olan amillər olmaqla, ilkin hər hansı bir inancın-şəriətin, daha sonra ortaya çıxan mükəmməl inanc forması- təriqətin, sonra isə, bu yolda elmlə bağlılıq-mərifətin və sonda isə Haqqı tanımağın Həqiqətə qovuşmağın yolu kimi özünü təqdim edir [-F.R.].

Vaizin moizəsi təriqət əhlinin nəzərində cansıxıcı və gərəksiz olduğu kimi alim və fəqihin öyrətdikləri də məqsədə çatmaqdan ötrü yetərli deyildi. M.Füzulinin sözləri ilə desək,

Mədrsə içrə müdərris verdiyi min dərsdən,
Yeydürür meyxanədə bir cam vermək bir gözəl... [1, s. 6].

Mən qəmə öyrənmişəm, biqəm mənə lazım deyil.
Qəmdə zövq olsa əgər, ol həm mənə lazım deyil... [7, s. 407, 414].

mədrəsədə müdərrisin verdiyi min dərsdən meyxanədə – mürşidi-kamilin əli ilə batini nurlanmaya kömək edən bir cam irfan şərabı içmək daha önəmli idi.

Bu misralarda Füzulinin mədrəsə və zaviyələr arasındakı ziddiyyətlərə qarşı yer alan fikrləri öz əksini tapır. Burada Tanrı qorxusu və sevgisi məsələsinə münasibət fərqli yer alır. Belə ki, mədrəsədə pis əməl və yanlışlığa münasibətdə bu əmələ görə insanlar Tanrının cəzası və qəzəbinə tuş ola bilər. Mədrəsələr insanları pis düşüncə və əməldən çəkinsin deyə, Tanrının qəzəb və qorxusu ilə hədələyirlər. Lakin zaviyə əhli bunun əksinə olaraq insanın bu cür hədələnməsini Qurana inamsızlıq və etiqatsızlıqla bağlayırlar. Burada mərifət və həqiqət əhli Allahdan çəkinmir [-F.R.].

Biz Məhəmməd Füzulinin misralarında Tanrı qarşısında canın bütün haqq baxımlarına bir mənbə olduğunu, Haqq ilə batilin canda təcəlla etdiyini önə çəkdiyini

Qorxuram bu cismi- zarımdan o dəm ki, can çıxa,
Ol zaman ol ləhzədə canan qəmi candan çıxa.
Atəşi-canə davam etmir bu qəlbim, kaş kim,
Qan olub didəm yolundan qanına qəltan çıxa [7, s. 343].

bu misralarda görürük ki, burada can və canan bir-biri ilə bağlıdır və hər iki varlıq müəllifin fikrində vəhdətdədir. Burada Füzuli Sufizmdəki, Vəhdəti vücud fəlsəfəsinin mahiyyətini düzgün aydınlaşdıraraq, belə nəticəyə gəlir ki, əgər can maddi varlıqdan ibarət olmasaydı, onda əxlaq tərbiyəsinə ehtiyac qalmazdı və əxlaqi qəbahətlər asanlıqla aradan qaldırılmış olardı. Əxlaqi prinsip və qayələrin canda təcəllası və bunların haqq, ədalət, hüquq, vəhdətində mövcudluğu özünü ortaya qoyur ki, bütün bunlar inasan düşüncəsinin həddi ilə bağlıdır [-F.R.].

Biz Vəhdəti-vücud fəlsəfəsinin sufizmdə özülünü təşkil edən başlıca təlimlərdən, əsas qollarından biri, sufilik fəlsəfəsinin vəhdəti-vücudda sirrli izi olduğuna rast gəlirik ki, can olmadıqda bu fəlsəfə də yoxdur. Vəhdəti-vücud, canda Haqqdan qeyri bir şey yoxdur misalındadır. Biz tədqiqatlarda eramızın VIII-XIII əsrlərində bu istiqamətdən Cüneyd Bağdadi, Həllac Mənsur, Mövlana Cəlaləddin, Mahmud Şəbüstəri kimilərin yazılarında "Allahdan başqası yoxdur" ifadəsinin əsas yer aldığını görürük. Eyni fikrin Füzulidə canda təcəlla edən sevda və cəfa birliyində mövcudluğunun

Gözəllər eşqinə düşdüm, nə çox cövrü cəfa gördüm,
O zülmü görməsin kafər ki, mən bəxti qara gördüm [7, s. 398.]

misralarında təkrarını görürük. Bu misralardakı mövcud şər ifadəsinin qrşısını alan isə, insana ilahi məhəbbət aşılayan, oxucusunu ülvi ideyalarla yaşamağa çağıran şairin, bu hisslərin canla vəhdətdə yer aldığının sübut edən, cövrü cəfanı kiməsə arzulamayaraq, ona dözüm tələb edən bu bir çağrış kimi özünü təqdim edir. Xüsusi olaraq qeyd edək ki, pedaqoji fikrin inkişafında Füzulinin əsərində rast gəldiyimiz bu fikirlər, sufizmdə əsas amillər kimi özünü tam təsdiq edir. Bura qədər olan bütün misralardakı Füzuli düşüncəsini ümumiləşdirərək, nəticə olaraq aşağıdakı fikirlərimizi qeyd edə bilərik.

**Nəticə**

Dahi Azərbaycan şairi, Məhəmməd Füzuli irsi Azərbaycan ədəbiyyatında tükənməz fəlsəfi və ədəbi sərvət kimi özünü təqdim edir. Onun istər qəzəl və qəsidələri, istərsə də poemalarındakı sufizm fəlsəfi cəryanı ilə bağlı fikirləri müxtəlif istiqamətlərdən əsərlərində yer alır. Burada böyük şairin

insanı özünə çağırmaqla, həm də onun öz şüuru ilə hər şeyə çata biləcəyini aşılaması özünü təsdiq edir. Bu isə onun yaradıcılığındakı fəlsəfənin insanlara aşılamasının bariz nümunəsi olaraq hər hansı bir fəlsəfi fikrin tədrisi və təsiri metodikası kimi də özünü təqdim edir. Onun insanlara təlqin etdiyi Sufizm, onun məhəbbətə qovuşmaq çağrışı, burada dini, mərifət, təriqət əlamətləri, əxlaqi hərəkətlərə baxışından ortaya çıxan nəticələr, sonda insanın Tanrıya olan sevgiyə çatmasına nail olur. Bu yolla onun yaradıcılıq motivləri yüksək qiyməti ilə seçilməklə, insanları öz şüuru müqabilində təmiz həyata cəlb edir. M.Füzuli əsərlərində biz Sufizmlə bağlı Tanrıya inanc, Vəhdəti-vücud, idrak fəlsəfəsini də görürük ki, bu şarin Sufi olduğunu tam olaraq təsdiq edən fəlsəfi əlamətlərdir.

## ƏDƏBİYYAT


1. Babayev Y. Təriqət ədəbiyyatı: Sufizm, Hürufizm. Bakı: Nurlan, 2007,128 s.
2. Əliyeva-Kəngərli G. Sufizm. Bakı: Aspoliqraf, 2014, 160 s.
3. Əliyeva Gülşən -Kəngərli. 525-ci qəzet.- 2013.- 12 yanvar.- s. 28-29
4. Ərəb və fars sözləri lüğəti. Bakı: Yazıçı,1985, 1026 s.
5. Gökberk Macit. Felsefe tarihi. İstanbul: «Remzi», 1999, 560 s.
6.Göyüşov N., Quran və irfan işığında. Bakı: «İqtisad Universiteti» nəşr., 2004, 132 s.
7. Məhəmməd Füzuli. Seçilmiş əsərləri, I c. Bakı: Azərnəşr, 1988, 581 s.
8. Məhəmməd Füzuli. Seçilmiş əsərləri, II c. Bakı: Azərnəşr, 1988, 392 s.
9. Musayev N. Məhəmməd Fizulinin ədəbi irsinin ümumtürk ədəbiyyatı kontekstində yeri//Filologiya və Sənətşünaslıq. Bakı: AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu, 2022, № 1, s. 80-87
10. Səfərli Ə., Yusifli X. Azərbaycan ədəbiyyatı tarixi. Bakı: Ozan, 2008, 696 s.
11. Uludağ Süleyman. İslam düşüncesinin yapısı. İstanbul: «Dergah», 1985, 248 s.
12.https://az.wikipedia.org/wiki/Sufizm



***AMEA Naxçıvan Bölməsi**
***İncəsənət, Dil və Ədəbiyyat İnstitutu**
***filologiya üzrə fəlsəfə doktoru, dosent**
***E-mail. firudinrzayev@gmail. com**


**Firudin Rzayev**

## MOTIFS OF SUFISM IN THE CREATIVITY OF MUHAMMAD FUZULI


In the article, Sufism and its different directions were investigated under the creativity of the great Azerbaijani poet Mahmud Fuzuli.Here, love motives and religious belief forms from the direction of Sufism are brought to light. Along with this, perspectives on the philosophy of unity-existence in Sufism have also been analyzed based on the creativity of M. Fuzuli. Along with this, perspectives on the philosophy of unity-existence in Sufism have also been analyzed based on the creativity of M. Fuzuli. In this article, comparative consideration was given to the correlations with his creativity. Faith, greed and their relationships in Sufism, created by M. Fuzuli, are also explained here.

The ideas related to love-affection, belief in God, existence-existence in Sufism, which are included in Fuzuli creativity in the Ummah, are extensive, but they have not been studied systematically. All these show the richness of Sufism in the creativity of Fuzuli. During the investigation, new scientific facts related to Sufism came to light.


**Keywords:** *M. Fuzuli, Sufism, love, religious belief, unity of existence, sectarianism*

**Фирудин Рзаев**

## МОТИВЫ СУФИЗМА В ТВОРЧЕСТВЕ МУХАММЕДА ФИЗУЛИ


В статье исследован суфизм и различные его направления в творчестве великого азербайджанского поэта Махмуда Физули. Здесь выявляются любовные мотивы и религиозные формы верования со стороны суфизма. Наряду с этим на основе творчества М. Физули также проанализированы взгляды на философию единства-бытия в суфизме. В данной статье

сравнительное рассмотрение дано корреляциям с его творчеством. Здесь также объясняются вера, жадность и их взаимоотношения в суфизме, созданном М. Физули.

Идеи, связанные с любовью-привязанностью, верой в Бога, бытием-бытием в суфизме, вошедшие в творчество Физули в Умме, обширны, но системно не изучены. Все это показывает богатство суфизма в творчестве Физули. В ходе расследования выявились.

новые научные факты, связанные с суфизмом.

**Ключевые слова:** *М.Фюзули, Суфизм, любовь, религиозные убеждения, единство существования, сектантство*

*AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev tərəfindən təqdim edilmişdir*

**İlk daxilolma tarixi: 14.05.2024**
**Son daxilolma tarixi:18.06.2024**